# Tariximizi unutmayaq

## *"UBM Group" 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı kampaniya keçirir*

Hər ilin bəzi təqvim günləri xalqımız üçün qara hərflərlə yazılan tarixi faciələrlə xatırlanır. Belə tarixlərdən biri də 31 Mart - Azərbaycanlıların Soyqırımı Günüdür.

1918-ci il martın 31-dən başlayaraq aprelin 2-dək erməni daşnak və bolşevik dəstələri tərəfindən minlərlə azərbaycanlı qətlə yetirilib, çoxlu sayda yaşayış binaları, məscidlər yandırılıb, əhalinin əmlakı qarət edilib.

Həmin il martın 30-dan 31-nə keçən gecə ermənilərin törətdiyi soyqırımı nəticəsində təkcə Bakıda 11 minə yaxın dinc sakin, o cümlədən qadın, uşaq və yaşlı insanlar vəhşicəsinə öldürülüb. Martın 31-də Şamaxı qəzasında erməni daşnakları ümumilikdə 16 mindən çox, Qubanın kəndlərində isə 2 mindən artıq günahsız azərbaycanlını qətlə yetiriblər. Onlar Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Muğanda və Dağlıq Qarabağda yüzlərlə kəndi yandırıblar.

Prezident Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanına əsasən, hər il martın 31-i Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur, bütün dünyada bununla bağlı müxtəlif tədbirlər, konfranslar, anma mərasimləri keçirilir.

Korporativ sosial məsuliyyət proqramı çərçivəsində ardıcıl layihələr həyata keçirən "UBM Group" 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı həqiqətləri geniş coğrafiyada yaymağı qarşısına məqsəd qoyub. Bunun üçün şirkət tərəfindən Facebook, Twitter, Instagram və YouTube sosial şəbəkələrində "Armenian Terror" adlı səhifə yaradılıb, fəal təbliğat kampaniyasına start verilib.




Şirkət tərəfindən xüsusi olaraq hazırlanmış posterlər, rəsm əsərləri və videokadrlar həmin səhifədə yerləşdirilir. Bütün dünyanı əhatə etmək məqsədilə bu təbliğat materialları Azərbaycan dili ilə yanaşı, ingilis, rus, alman və fransız dillərində də hazırlanıb.

Xatırladaq ki, "UBM Group" bu ilin əvvəlindən 20 Yanvar hadisələri ilə bağlı və "Xocalıya ədalət!" kampaniyası çərçivəsində bütün sosial şəbəkələr və digər resurslar vasitəsilə geniş təbliğat işləri aparıb.

Biz, dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, bütün həmvətənlərimizi bu işdə fəal iştiraka dəvət edirik. Gəlin tariximizi unutmayaq, unudulmasına da imkan verməyək. Sizi bizim paylaşdığımız təbliğat materiallarından istifadə etməklə sosial şəbəkələrdə, mediada və səsimizin duyulduğu hər bir ölkədə təbliğatı gücləndirməyə çağırırıq.

Şərhlər, xəbərlər, bəyənmələr, paylaşmalar, qeydlər və təşviqat üçün aşağıda qeyd olunmuş linklər və #armenianterror #31marchgenocide həştəqlərindən istifadə etməyinizi xahiş edirik:

*https://www.facebook.com/armenianterror/*
*https://twitter.com/armenianterror_/*
*https://www.instagram.com/armenian_terror/*
*https://www.youtube.com/channel/UCPw6RiumvfoSK7bNGDwB3Ew/videos*